*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

6 dekabr 2025-ci il | №46 (9152) | www.muallim.edu.az | muallim@media.edu.az



## Akademik Yusif Məmmədəliyevin elmi irsi bəşəriyyət üçün mühüm əhəmiyyət daşıyır

**Salim bin Məhəmməd əl-Maliki**

“Akademik Yusif Məmmədəliyevin elmi irsi təkcə Azərbaycan üçün deyil, ümumən bəşəriyyət üçün mühüm əhəmiyyət daşıyır. Məmmədəliyevin parlaq nailiyyətləri insanlığın Yer kürəsindən kənara atdığı ilk böyük addımların təməlində dayanan elmi sıçrayışlara ciddi töhfə verib. Akademik Məmmədəliyev yalnız görkəmli bir kimyaçı deyil, həm də elm və mədəniyyətin vəhdətinə böyük önəm verən müdrik maarifçi olub. O, elmi milli kimlik və irslə qovuşduraraq Azərbaycan dili, ədəbiyyatı, əlyazmaları və tarixi yaddaşının qorunmasına xüsusi diqqət ayırıb. Yusif Məmmədəliyevin yaratdığı bu irs elm və mədəniyyət arasında harmoniyanın xalqların tərəqqisi üçün əsas şərt olduğunu sübut edir”.

**Bax səh. 2**

# PREZİDENT SƏRƏNCAM VƏ FƏRMAN İMZALADI

## Azərbaycan Ruanda ilə təhsil sahəsində əməkdaşlıq edəcək

“Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Ruanda Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilib. Prezident İlham Əliyev bu barədə Fərman imzalayıb.

Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməli, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Ruanda Respublikası Hökumətinə bildiriş göndərməlidir.

Qeyd edək ki, saziş 2025-ci il sentyabrın 20-də Bakı şəhərində imzalanıb.

## 21 peşə məktəbi tikiləcək, 2-si əsaslı təmir olunacaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb. Sərəncamda deyilir:

“Əmək bazarının tələblərinə uyğun səriştələr formalaşdıran yüksəkkeyfiyyətli peşə təhsili məşğulluq səviyyəsinin və əmək məhsuldarlığının artırılmasına mühüm töhfə verir. Bu sahəyə yönəlmiş tədbirlərin həyata keçirilməsinin vacibliyi son illərdə qəbul edilmiş bir sıra sənədlərdə, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda öz əksini tapmışdır.

Ölkənin dinamik inkişafı və əmək bazarının dəyişən tələbləri əmək bazarında rəqabətqabiliyyətli ixtisaslı kadr potensialına tələbatı artırmaqla yanaşı, bu tələbatın ödənilməsinə imkan verən müasir standartlara uyğun infrastruktura və tədris bazasına malik yeni peşə təhsili müəssisələrinin yaradılmasını zəruri edir.

**Bax səh. 2**




## 4 gümüş, 2 bürünc medal

### Azərbaycan məktəbliləri beynəlxalq elm yarışında böyük uğur qazanıblar

23 noyabr – 2 dekabr tarixlərində Rusiyada keçirilən Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadasında (IJSO 2025) Azərbaycan məktəbliləri yüksək nəticə əldə ediblər. Rusiya, Çin, Hindistan, Macarıstan, Serbiya, Tayland və digər ölkələri təmsil edən güclü komandaların iştirak etdiyi nüfuzlu elm yarışında 6 nəfərdən ibarət milli komandamız ümumilikdə 4 gümüş və 2 bürünc medal qazanaraq iştirakçı ölkələr sırasında 5-ci yerə layiq görülüb.

Astara rayonu Pensər kənd 2 nömrəli tam orta məktəb-liseyin X sinif şagirdi Rəsul Şahverdiyev, Masazır kənd 3 nömrəli tam orta məktəbin X sinif şagirdi Oğuz Əlili, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin X sinif şagirdi Mikayıl İbrahimli və həmin liseyin IX sinif şagirdi Mehdi Həbibzadə gümüş medal qazanıblar.

BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin IX sinif şagirdi Fidan Həşimova, Bərdə şəhər Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü liseyin X sinif şagirdi Hidayət Quliyev isə bürünc medal əldə ediblər.

Qeyd edək ki, ötən tədris ilində Azərbaycan komandası bu olimpiadadan 6 bürünc medal qazanmışdı.

# DÜŞÜN, YARAT, KODLA!




### “Uğurumuzda ən böyük pay ortaya qoyduğumuz komanda işinindir”

## Azərbaycan məktəbliləri ideyalarını rəqəmsal məhsula çevirdilər

**Bax səh. 4**

## Tarixə şahidlik edən Göyçə gölü



Bax səh. 6

## “BilBacar” müsabiqəsi nə vəd edir?



Bax səh. 5

## Qaranlığa işıq saçan barmaqlar




Bax səh. 7

# Prezident Sərəncam imzaladı

## 21 peşə məktəbi tikiləcək, 2-si əsaslı təmir olunacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb. Sərəncamda deyilir:

“Əmək bazarının tələblərinə uyğun səriştələr formalaşdıran yüksəkkeyfiyyətli peşə təhsili məşğulluq səviyyəsinin və əmək məhsuldarlığının artırılmasına mühüm töhfə verir. Bu sahəyə yönəlmiş tədbirlərin həyata keçirilməsinin vacibliyi son illərdə qəbul edilmiş bir sıra sənədlərdə, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda öz əksini tapmışdır.

Ölkənin dinamik inkişafı və əmək bazarının dəyişən tələbləri əmək bazarında rəqabətqabiliyyətli ixtisaslı kadr potensialına tələbatı artırmaqla yanaşı, bu tələbatın ödənilməsinə imkan verən müasir standartlara uyğun infrastruktura və tədris bazasına malik yeni peşə təhsili müəssisələrinin yaradılmasını zəruri edir.

Müasir standartlara uyğun infrastruktura və tədris bazasına malik yeni peşə təhsili müəssisələrinin yaradılması peşə təhsilli şəxslərin əmək bazarında xüsusi çəkisini artırmaqla müxtəlif peşələr üzrə ixtisaslı kadrların hazırlanmasını təmin edəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, peşə təhsili sisteminin potensialının gücləndirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** 2026-2030-cu illərdə müasir standartlara cavab verən 21 peşə təhsili müəssisəsinin tikintisi və 2 peşə təhsili müəssisəsinin əsaslı təmiri işlərinin aparılması təmin edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasında peşə təhsili sisteminin potensialının gücləndirilməsinə dair tədbirlər planını dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Sərəncamın 1-ci hissəsində tikintisi və əsaslı təmiri nəzərdə tutulmuş peşə təhsili müəssisələrinin siyahısını təsdiq etsin və bu məqsədlə tələb olunan maliyyə vəsaitinin illər üzrə bölgüsünü hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Dövlət Neft Fonduna təqdim etsin.

**4.** Azərbaycan Respublikasının Dövlət Neft Fondu bu Sərəncamın 1-ci hissəsində göstərilmiş tədbirlərin icrası üçün tələb olunan maliyyə vəsaitini Fondun hər il üçün tərtib edilən büdcəsində nəzərdə tutsun”.

# Yusif Məmmədəliyevin elmi irsi geniş şəkildə tətbiq olunur

## “Yusif Məmmədəliyev: Elm. İrs. İnnovasiyalar” adlı beynəlxalq konfrans



Dekabrın 4-də görkəmli kimyaçı alim, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunan “Yusif Məmmədəliyev: Elm. İrs. İnnovasiyalar” adlı beynəlxalq konfransın ilk günü yekunlaşıb.

Elm və Təhsil Nazirliyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) birgə təşkil etdiyi konfrans Azərbaycan elminin inkişafında müstəsna xidmətləri olan akademikin elmi irsinin tədqiqi və müasir perspektivlər fonunda yenidən qiymətləndirilməsinə həsr olunub.

Konfransdan əvvəl Fəxri xiyaban ziyarət edilərək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın əziz xatirəsi ehtiramla yad olunub, məzarları önünə əklil və gül dəstələri qoyulub.

Sonra akademik Yusif Məmmədəliyevin məzarı ziyarət edilib, xatirəsi ehtiramla yad olunub.

AMEA-nın Rəyasət Heyətinin binasında keçirilən açılış mərasimindən öncə akademik Yusif Məmmədəliyevin həyat və fəaliyyətinə həsr olunmuş fotosərgiyə baxış keçirilib.

Konfransın rəsmi açılış mərasimi Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Daha sonra akademik Yusif Məmmədəliyevə dair video nümayiş olunub.

Mərasimin rəsmi açılış hissəsində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, Yusif Məmmədəliyevin elmi irsi bu gün kimya sənayesində, elmi-tədqiqat müəssisələrində və ali təhsil proqramlarında geniş şəkildə tətbiq olunur.

Elm və Təhsil Nazirliyinin elmin populyarlaşdırılması, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, geniş tədqiqatçı kütləsinin dəstəklənməsi istiqamətində ardıcıl addımlar atdığını vurğulayan Emin Əmrullayev qeyd edib ki, bu çərçivədə akademik Yusif Məmmədəliyevin 120 illiyi münasibətilə elm və təhsil müəssisələrində onun həyat və elmi fəaliyyəti barədə ətraflı məlumat verən tədbirlər təşkil olunur, tələbələrə müvafiq mövzular üzrə tədqiqat tapşırıqları verilir.



Elm və təhsil naziri Yusif Məmmədəliyev adına müxtəlif tədqiqat qrantlarının, təqaüdlərin və gənc alimləri dəstəkləyən digər alətlərin hazırlanmasının həmin irsin davamlı şəkildə yaşadılmasına mühüm töhfə olacağını qeyd edib.

Emin Əmrullayev bildirib ki, növbəti ildən başlayaraq Yusif Məmmədəliyev adına kimya olimpiadasının keçirilməsi planlaşdırılır. Olimpiada həm Azərbaycan, həm də region ölkələrinin şagirdlərini əhatə edəcək.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qeyd edib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, bu gün isə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətimizin elm siyasəti və qayğısı nəticəsində Azərbaycan alimləri öz yaradıcı fəaliyyətləri ilə ölkəmizin inkişafına töhfə verirlər.

Akademik Yusif Məmmədəliyevin ölkəmizdə humanitar və ictimai elmlərin, Azərbaycan dilinin, ədəbiyyatının, tarixinin, mədəniyyətinin də inkişafında müstəsna xidmətləri olduğunu söyləyən akademik İsa Həbibbəyli bildirib ki, görkəmli alim AMEA-nın prezidenti kimi daim bu sahələrdə tədqiqatların aparılması və genişləndirilməsinə rəhbərlik edib.

AMEA rəhbəri akademik Yusif Məmmədəliyevin ölkəmizdə elmlə təhsilin inteqrasiyasına da daim diqqət yetirdiyini, Bakı Dövlət Universitetinin rektoru olduğu illərdə daim elmi nailiyyətlərin təcrübədə sınaqdan keçirilməsinə çalışdığını söyləyib.

İsa Həbibbəyli sonda akademik Yusif Məmmədəliyevin elmi irsinin, tarixi nailiyyətlərinin, ixtiralarının, həyat fəaliyyətinin zəngin olduğunu, bu gün də bu sahədə gənc kadrların hazırlanmasına, onların gələcək fəaliyyətinə stimul verdiyini söyləyib, konfransın işinə uğurlar arzulayıb.

Daha sonra çıxış edən Milli Məclis sədrinin müavini Rafael Hüseynov Yusif Məmmədəliyevin həyatı barədə maraqlı məqamları konfrans iştirakçılarının diqqətinə çatdırıb. Yusif Məmmədəliyevin mədəniyyətə bütün ruhu və varlığı ilə bağlı bir insan olduğunu deyən Rafael Hüseynov akademikin Bülbül, Səməd Vurğun, Üzeyir Hacıbəyli kimi böyük mədəniyyət xadimləri ilə yaxın, mehriban dostluq münasibətlərindən danışıb. Qeyd edib ki, bu yaxınlıq onun daxildən gələn incə hissiyyatının, mədəniyyətə olan sevgisinin göstəricisi idi.

Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev isə çıxışında bildirib ki, Azərbaycanın ictimai və intellektual mühitində akademik Yusif Məmmədəliyevin timsalında onlarla, bəlkə də, yüzlərlə dünyaşöhrətli alim yetişir və Azərbaycan xalqı artıq dünyanın elm mərkəzlərindən birinə çevrilir. Azərbaycan xalqının elm və tərəqqi yolu ilə irəliləməsində akademik Yusif Məmmədəliyevin parlaq ideyalarının xüsusi rolunu vurğulayan Şahin Mustafayev qeyd edib ki, bu yolda Beynəlxalq Türk Akademiyası həm Azərbaycan elminin, həm də Türk dünyasının elminin inkişafına öz töhfəsini verməyə hazırdır.

Konfrans iştirakçılarını salamlayan Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, akademik Yusif Məmmədəliyevin qızı Sevda Məmmədəliyeva Ulu Öndər Heydər Əliyev tərəfindən akademikin xidmətlərinin hər zaman yüksək dəyərləndirildiyini, bu gün də Prezident İlham Əliyev tərəfindən akademikin xatirəsi və irsinə daim həssas münasibət göstərildiyini xüsusi vurğulayıb. Sevda Məmmədəliyeva akademikin xatirəsinə göstərilən böyük ehtirama görə ölkə rəhbərliyinə dərin minnətdarlığını ifadə edib. Konfransın əhəmiyyətinə toxunan Sevda Məmmədəliyeva çıxışında yubiley konfransının bütün təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib. Qeyd edib ki, Yusif Məmmədəliyevin həyat yolu həm bir ideya, həm bir məktəb, həm də bir dəyər kimi yaşayır. Bu gün yüzlərlə alim, yüzlərlə tələbə bu məktəbin davamçısıdır.

Konfrans çərçivəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Səlim bin Məhəmməd əl-Malik və UNESCO-nun baş direktorunun müavini Lidiya Britonun videomüraciəti dinlənilib.

Çıxışlardan sonra akademik Yusif Məmmədəliyevin həyat və elmi fəaliyyətinə həsr olunmuş sənədli film də nümayiş edilib.

Daha sonra yerli və xarici alimlər “AMEA-nın Yusif Məmmədəliyev döş nişanı” və “AMEA-80” döş nişanı ilə təltif ediliblər.

Rəsmi açılış mərasimindən sonra konfrans öz işini panel müzakirələrlə davam etdirib.

Konfransın birinci günündə dünyanın müxtəlif elm mərkəzlərini təmsil edən tanınmış alimlərin iştirakı ilə “Yusif Məmmədəliyevin elmi, pedaqoji və təşkilati fəaliyyəti: Azərbaycan və dünya elminin inkişafına verilmiş töhfə”, “Kimya elmində müasir çağırışlar: varislik və innovasiyalar” və “Elmi irs və gələcəyin üfüqləri” mövzularında panel sessiyaları keçirilib.





Dekabrın 5-də akademik Yusif Məmmədəliyevin 120 illik yubileyi münasibətilə keçirilən tədbirin “Naxçıvan səfəri” çərçivəsində nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Əməkdar incəsənət xadimi, AMEA-nın müxbir üzvü, professor, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Sevda Məmmədəliyeva və digər tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsini anıblar.

Tədbir çərçivəsində Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində akademik Yusif Məmmədəliyev adına Tədris-Tədqiqat Mərkəzi istifadəyə verilib. Mərkəzdə “Akademik Yusif Məmmədəliyev - 120” adlı sərgiyə baxış olub.

Tədbir iştirakçıları mərkəzdə fəaliyyət göstərən laboratoriyalarla tanış olub və həyata keçirilən təcrübələri izləyiblər.

Universitetin Konservatoriya binasında davam etdirilən tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayaraq bildirib ki, Ümummilli Lider Heydər Əliyevin yüksək dəyər verdiyi Yusif Məmmədəliyev irsi bu gün Naxçıvan Dövlət Universitetində də ətraflı tədqiq olunur, gənc nəslə aşılanır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tədbirin yalnız bir alimin xatirəsinə ehtiram deyil, həm də Azərbaycan elminin keçdiyi böyük inkişaf yoluna nəzər salmaq, Yusif Məmmədəliyevin elm tariximizə etdiyi töhfələri yeni nəslə daha dərindən çatdırmaq məqsədi daşıdığını qeyd edib.

Sonra universitetin heykəltəraş müəllimi Elxan Zeynalov tərəfindən hazırlanmış barelyef və Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, incəsənət fakültəsinin dekanı Cavid İsmayılovun çəkdiyi “Akademik Yusif Məmmədəliyev” portreti akademikin qızı Sevda Məmmədəliyevaya təqdim edilib.

Professor Sevda Məmmədəliyeva dövlətimizin elm adamlarının xidmətlərini hər zaman yüksək qiymətləndirdiyini bildirib, Ümummilli Lider Heydər Əliyevin akademik Yusif Məmmədəliyevin yubiley tədbirlərində iştirakını, ev-muzeyinin yaradılması ilə bağlı təşəbbüsünü minnətdarlıqla xatırlayıb, Prezident cənab İlham Əliyevin Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyinin qeyd edilməsi haqqında Sərəncamının bu diqqət və qayğının davamı kimi yüksək dəyərə malik olduğunu qeyd edib.

Qonaqlar akademik Yusif Məmmədəliyevin Ordubad şəhərindəki abidəsinin bərpadan sonra açılışında iştirak edib, önünə tər güllər düzüblər.

Sonra Yusif Məmmədəliyevin Ordubad şəhərindəki ev-muzeyi ziyarət edilib.

Əməkdar incəsənət xadimi, professor Sevda Məmmədəliyeva atası ilə bağlı xatirələrini bölüşüb.

# ELM VƏ TƏHSİL NAZİRİ YÜKSƏK DÖVLƏT TƏLTİFLƏRİNƏ LAYİQ GÖRÜLMÜŞ ALİMLƏRLƏ GÖRÜŞÜB





Dekabrın 3-də elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə ölkə başçısının müvafiq sərəncamına əsasən Azərbaycan elminin inkişafında xidmətlərinə görə təltif edilən bir qrup alimlə görüşüb.

Görüş zamanı nazir Emin Əmrullayev son illərdə elmin inkişafı istiqamətində atılan əsas addımlar, aparılan struktur islahatları, elmi fəaliyyətin stimullaşdırılması, gənc tədqiqatçıların dəstəklənməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi sahəsində görülən işlər barədə ətraflı məlumat verib.

Daha sonra nazir alimlərin hər birini təbrik edərək onlara dövlət təltiflərini təqdim edib.

Alimlər də öz növbələrində göstərilən etimada və əməyə verilən dəyərə görə təşəkkürlərini bildirib, elmin inkişafına mane olduğunu düşündükləri məsələlərə diqqət çəkib, mövcud proseslərlə bağlı fikirlərini bölüşüblər. Onlar görülən işlərin əhəmiyyətini vurğulayıb və bu cür görüşlərin mütəmadi keçirilməsinin önəmini qeyd ediblər.

# Elm və təhsil sahəsində əməkdaşlıq genişləndirilir



## Emin Əmrullayev Albaniyanın səfiri ilə görüşüb

Dekabrın 2-də elm və təhsil naziri Emin Əmrullayev Albaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Besart Kadia ilə görüşüb. Görüş zamanı tərəflər elm və təhsil sahəsində cari əməkdaşlıq və inkişaf imkanlarına dair müzakirələr aparıb.

## Firudin Qurbanov Rusiya Federasiyasının Tatarıstan Respublikasının Baş nazirinin müavini, sənaye və ticarət naziri ilə görüşüb



Dekabrın 4-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Baş nazirinin müavini, sənaye və ticarət naziri Oleq Korobçenko ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

## Azərbaycan nümayəndə heyəti Özbəkistanda beynəlxalq konfransda iştirak edib

Elm və Təhsil Nazirliyi və Baş Prokurorluğun əməkdaşlarından ibarət nümayəndə heyəti 26-29 noyabr 2025-ci il tarixlərində Özbəkistanda keçirilən beynəlxalq konfransda iştirak edib.

Özbəkistan Respublikası Baş Prokurorluğu yanında Hüquq-Mühafizə Akademiyası tərəfindən "Müasir çağırışlar kontekstində qanunun aliliyinin təmin edilməsi: problemlər və həlli yolları" mövzusunda təşkil edilmiş beynəlxalq elmi-praktiki konfransda Elm və Təhsil Nazirliyi Daxili nəzarət şöbəsi ilə təmsil olunub.

Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəhbər heyətinin də iştirak etdiyi konfrans çərçivəsində "Rəqəmsal dövrdə hüquq-mühafizə fəaliyyətində elm və təhsil: problemlər və innovativ həllər", "Korrupsiya 2.0: rəqəmsal risklər və innovativ həll yolları" və digər mövzularda panel müzakirələr aparılıb.

Konfransda çıxış edən Elm və Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin müdiri Kamran İsmayılov rəqəmsal dövrdə qanunun tənzimləyici rolu, elm və təhsil sahəsində hüquqpozmalara qarşı preventiv tədbir kimi maarifləndirmə tədbirlərinin təşkilinin əhəmiyyətinə toxunub.

34 ölkədən 49 ekspertin iştirakı və ümumilikdə 250-dən çox yerli və beynəlxalq nümayəndə və təşkilatların qatıldığı, eləcə də müxtəlif ölkələrin dövlət orqanlarının təmsil edildiyi konfransda yeni qurulmuş akademiyanın infrastrukturu və tədris metodikası, cinayət-axtarış, korrupsiyaya qarşı mübarizə texnologiyaları və aidiyyəti sahədə süni intellektdən istifadə barədə ətraflı məlumat verilib.

# Emin Əmrullayev Gürcüstanda səfərdədir

## Gürcüstanın təhsil, elm və gənclər naziri ilə görüş

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Gürcüstana səfəri çərçivəsində dekabrın 4-də Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze ilə görüş keçirilib. Görüş zamanı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə olunub.

Bununla yanaşı, tərəflər təcrübə və məlumat mübadiləsinin, hər iki ölkədə Azərbaycan və gürcü dillərinin tədrisinin davam etdirilməsi, universitetlərarası və STEAM sahəsində əməkdaşlığın genişləndirilməsi, o cümlədən elm sahəsində birgə layihələrin həyata keçirilməsi istiqamətində razılığa gəliblər.

Qeyd edək ki, səfər çərçivəsində nümayəndə heyətinin Gürcüstanın bir sıra ümumi və ali təhsil müəssisələrinə səfəri də nəzərdə tutulub.

## Emin Əmrullayev Gürcüstan Parlamentinin Təhsil, elm və gənclərlə iş komitəsinin sədri ilə görüşüb





Dekabrın 5-də elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstana səfər çərçivəsində Gürcüstan Parlamentinin Təhsil, elm və gənclərlə iş üzrə komitəsinin sədri Mariam Laşxi ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində, xüsusilə ümumi və ali təhsil pillələri üzrə əməkdaşlığın cari vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilib.

## Elm və təhsil naziri Gürcüstanın aparıcı ali təhsil müəssisələrində olub



Dekabrın 5-də elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanın qabaqcıl ali təhsil müəssisələrindən olan Tbilisi Dövlət Universiteti və Gürcüstan Texniki Universitetinə səfər edib.

Səfər çərçivəsində elm və təhsil naziri sözügedən universitetlərin laboratoriyaları və maddi-texniki bazası ilə yaxından tanış olub, eyni zamanda ali təhsil sahəsində əməkdaşlıq imkanlarını müzakirə edib.

Azərbaycan məktəbliləri öz ideyalarını kodlaşdırmaqla yarışıb, ortaya qoyduqları rəqəmsal məhsullarını Heydər Əliyev Mərkəzində nümayiş etdiriblər. Söhbət noyabrın 28-dən start götürən Elm və Təhsil Nazirliyinin dəstəyi və “Alqoritmika” beynəlxalq proqramlaşdırma və riyaziyyat məktəbinin təşkilatçılığı ilə keçirilən Məktəblilərarası Milli Hakaton - 2025 müsabiqəsindən gedir. Yarışın final mərhələsi bu həftə yekunlaşıb. Dekabrın 1-də keçirilən mükafatlandırılma mərasimində elm və təhsil nazirinin müavini Həsən Həsənli, millət vəkilləri, ayrı-ayrı qurumların rəhbərləri, müəllimlər, şagirdlər və kütləvi informasiya vasitələrinin nümayəndələri də iştirak ediblər.

# DÜŞÜN, YARAT, KODLA!




## Azərbaycan məktəbliləri öz ideyalarını rəqəmsal məhsula çevirdilər





### Hakaton, sadəcə bir yarış deyil...

Məktəblilərarası Milli Hakaton - 2025 müsabiqəsinə ölkənin 63 regionundan 350 mindən çox şagird qatılıb. 16 min məktəbli seçim mərhələsində uğur qazanıb, onlardan 1600 şagird olimpiada mərhələsinə yüksəlib, 300 nəfər isə 70 komandada birləşərək finalda mübarizə aparıb. Hazırlıq prosesində 25 mentor, 5 mütəxəssis iştirakçılara təlimlər keçib.

Finalda komandalar turizm, ekologiya, maliyyə, mədəniyyət və incəsənət sahələri üzrə hazırladıqları veb-sayt, mobil tətbiq və oyun formatlı layihələrlə çıxış ediblər.

### Məktəblilər rəqəmsal texnologiyalar dövrünə hazırlanır

Mükafatlandırılma tədbirində çıxış edən Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Keyfiyyət təminatı və nəzarət şöbəsinin müdiri Nilüfər Rəhimova bildirib ki, Hakaton çərçivəsində rəqəmsal bacarıqların ölçülməsi, alqoritmik düşüncə, süni intellekt və informasiya təhlükəsizliyi üzrə 4 kütləvi açıq mərhələ təşkil olunub. İlk mərhələdə rəqəmsal bacarıqlar yoxlanılıb. Növbəti mərhələlərdə alqoritmik düşüncə, süni intellekt, informasiya təhlükəsizliyi üzrə müxtlif mövzularda təşkil edilən sessiyalarda şagirdlər müxtəlif tapşırıqları həll ediblər: “Bu mərhələlər vasitəsi ilə Hakaton, sadəcə bir yarış deyil, eyni zamanda təhsil prosesində aktuallığını artıran geniş kompetensiyalar toplusu formalaşdıran təlim və inkişaf platformasına çevrilib.

### Hakatonda bərabər imkanlar: yüksək iştirakçılıq

Bu il ilk dəfə müxtəlif bölgələrdə 147 hakaton mərkəzi yaradılıb. Mərkəzlərin fəaliyyəti şagirdlərin müsabiqədə bərabər iştirakını təmin etməyə, texniki imkanlardan asılılığı azaltmağa xidmət edib.

Bu da öz nəticəsini verib. Ölkənin bütün iqtisadi rayonları üzrə yüksək iştirak göstəriciləri qeydə alınıb. Müsabiqənin mərhələlərinin hər birində iştirak faizi yüksək olub: “Statistik təhlillərə əsasən deyə bilərik ki, layihə gözlənildiyindən daha geniş miqyasda baş tutub. Müsabiqəyə cəlb olunan iştirakçı sayı, mərhələlərə keçid faizi və finala yüksələn komandaların sayı ümumi ortalama baxımından yüksəkdir”.

### Hakatonda ilk

Bu il Hakatonun olimpiada mərhələsinin mərkəzləşdirilmiş imtahan formatında təşkili yenilik olub. Bu yanaşma şagirdlərin bilik və bacarıqlarının bütün bölgələrdə eyni meyarlarla qiymətləndirilməsinə və nəticələrin obyektivliyinin artırılmasına şərait yaradıb: “Mərkəzləşdirilmiş imtahan mexanizmi gələcəkdə bu tip müsabiqələrin idarə olunması və qiymətləndirilməsi məqsədilə metodik yanaşmaların təkmilləşdirilməsi üçün yeni imkanlar açır”.

### Layihədə əməkdaşlıq

N.Rəhimova layihədə qurumlarla qarşılıqlı əlaqələrdən də danışıb. Əməkdaşlıq çərçivəsində şagirdlər üçün ekskursiyalar təşkil edilib, maarifləndirmə proqramları həyata keçirilib. O, xüsusilə informasiya təhlükəsizliyi mərhələsində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası ilə əməkdaşlığı qeyd edib. Bu əməkdaşlıq təhlükəsiz rəqəmsal davranış mədəniyyətinin formalaşmasına mühüm dəstək olub.

### “175 mərkəzdə kompüter əsaslı imtahan keçirmək imkanımız var”






Elm və təhsil nazirinin müavini Həsən Həsənli şagirdlərin rəqəmsal bacarıqlarının inkişafı sahəsində aparılan genişmiqyaslı işlərlə bağlı məlumat verib. Nəticədə məktəblərdə rəqəmsal infrastruktur gücləndirilib, internet təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb: ”Bu gün 175 mərkəzdə kompüter əsaslı imtahan keçirmək imkanımız var. İnsan kapitalının formalaşdırılması ən vacib istiqamətlərdəndir və bu məqsədlə Prezident İlham Əliyevin təsdiqlədiyi strategiya çərçivəsində işlərə başlanılıb və artıq ilk uğurlarımızdan danışa bilərik”.

“Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” təsdiq olunanda məktəblərdə kompüter və internetlə təminat istənilən səviyyədə deyildi: “Bu gün artıq məktəblərdə şagird-kompüter nisbəti 1:6 səviyyəsinə çatıb. Bu isə o deməkdir ki, məktəblərdə kompüter laboratoriyalarında şagirdləri öz layihələri, öyrənmə ehtiyacları əsasında səmərəli fəaliyyət göstərə bilirlər. Məktəblərin kompüter və internetlə təminatı böyük faizlə həll edilib”.

### “Şagirdlərimizin uğurlarını görmək bizi sevindirir”

Müsabiqələrdə yüksək nəticələrin əldə edilməsi məktəbdə məzmunun dəyişməsi ilə bağlıdır: “600 min şagirdə İnformatika dərsindən əlavə Rəqəmsal bacarıqlar dərsi keçirik və çalışırıq ki, şagirdin öz ehtiyaclarına uyğun komputer əsaslı, rəqəmsal qiymətləndirməni mümkün edən alətlərdən istifadə edək. 300 mindən çox şagird STEAM-a cəlb edilib. Bu da o deməkdir ki, şagirdlərin öz layihələrini təqdim etmək, komanda şəklində işləmək, inandırma, əmək bazarında rəqabət aparma qabiliyyətləri daha yüksək olacaq”.

Milli Hakaton çərçivəsində kiçik startaplar hazırlandığına diqqət çəkən Həsən Həsənli məktəblilərin artıq əmək bazarına hazır fərdlər olaraq yetişdirildiyini qeyd edib.

H.Həsənli şagirdlərin yaratdığı startaplardan gəlir götürmək imkanına da diqqət çəkib: “Ayrı sualdır ki, məktəblilər hüquqi şəxs yarada bilərlərmi, ödəniş qəbul edə bilərlərmi? Bunun üzərində də növbəti illərdə çalışmaq imkanı olacaq. Ən önəmlisi odur ki, şagirdlərimizin uğurlarını gözlə görmək mümkündür və bu bizi sevindirir. Şagirdlər öz ideyalarını reallaşdırmağa başlayıblar”.

Gələcəkdə bu istiqamətdə işlərin daha da genişlənəcəyini deyən nazir müavini məktəblilərə tövsiyə verib: “Tarix də sübut edir ki, milli ideya əsasında əzmlə çalışmaq və təslim olmamaq şərtilə istənilən missiyanın, tapşırığın, çətinliyin öhdəsindən gəlmək mümkündür”.

## QALİB KOMANDALAR

9-cuların “9_32” şəklində kodlaşdırılmış “Zirvə layihəsi” qaliblərdəndir. Həm yerli, həm xarici turistlər üçün Azərbaycanı daha rahat gəzmək imkanı yaradan tətbiq III yerə layiq görülüb.

Tuncay Paşayev, Münəvvər Zeynallı, Musa Səttarzadədən ibarət komanda iş, vaxt bölgüsünü də düzgün aparıb. İlk dəfə bu yarışda bir araya gələn uşaqlar elə Hakatonda da ilk dəfə iştirak ediblər. Eyni işi görən məktəbli dostlarından fərqlərini belə izah edirlər: “Əslində, eyni iş kimi görünə bilər. Lakin kiçik detalları gözdən qaçırmaq kiçik fərqlə də olsa, qələbədən uzaqlaşdırır. Bizdə Üzeyir QA Tester kimi kiçik detallara diqqət etdi və buna diqqət edildiyi üçün qiymətləndirmədə nəticələrimiz yüksək oldu”.

Məktəblilər deyir ki, saytlarının işlək vəziyyətə gəlməsi, turistlərin ixtiyarına verilməsi üçün həm vəsait, həm də dəstək lazımdır. Bunlar olarsa, saytları nəinki Azərbaycanda istifadə edilər, hətta dünyaya da açıla bilər. Bu məqsədlə hərəkətə keçməyə, təqdimatla turizm şirkətləri qarşısında çıxış edib onları inandırmağa da hazırdırlar.

X-XI siniflər üzrə III yerə layiq görülən komanda üzvləri - Davud Əliyev Bakı şəhəri 211, Samir Ağalarov Tərtər rayon 1, Aliyə Döyüşova Qusar rayonundakı 3 nömrəli tam orta məktəblərin X sinif, Rəna Qasımova isə 160 nömrəli Klassik Gimnaziyanın şagirdləridir.

Hazırladıqları tətbiq təbiətə yürüş etmək istəyənlər üçün təsadüfi və təhlükəsiz marşurutlar yaradır. Dağ turizminin inkişafına səbəb ola biləcək mobil tətbiqi təqdim edən komanda istifadəçini dağlarda təhlükəsiz yollarla, görməli yerləri əhatə etməklə aparır.

Samir deyir ki, uğurlarının başlıca səbəbi sərgilədikləri komanda işi olub: “Qiymətləndirmə zamanı komanda işinə çox diqqət edilirdi. Biz də bir komanda olaraq çıxış etdik və uğur qazandıq”.

Doqquzuncular üzrə II yerə layiq görülən “9_31” komandasında da məktəblilər vaxtı düzgün idarə edib, işlərini dəqiq bölüblər: “Sinerjimiz tutdu. Uğurumuzda ən böyük pay ortaya qoyduğumuz komanda işinindir”.

Rəvan Cahangirli 16 nömrəli texniki humanitar liseyin, Tuncay Cəfərli 280 nömrəli tam orta məktəbin, Naim Əhmədov Bakı şəhəri 6 nömrəli məktəb-liseyin, Tunar Hacızadə 5 nömrəli Qəbələ şəhər tam orta məktəbin şagirdləridirlər. Hakatonda birləşərək komanda yaradıb və turizm mövzusunda ikihissəli layihə hazırlayıblar.

Ölkədaxili dağ turizmi ilə bağlı mərhələləri keçərək bonuslar qazanır və bu bonuslardan tur paketlərinə endirim kimi istifadə edirlər. Onların yaratdıqları sayt həm maarifləndirmə, həm də real turizm təcrübəsini birləşdirir.

XI sinif şagirdlərindən ibarət “1011_10” komandası II yerdə qərar tutub. Kənan Kərimzadə Xırdalan 3 nömrəli tam orta məktəbin, Yunis Qədirli Bakıdakı 18 nömrəli tam orta məktəbin, Hüseyn Verdiyev 95 nömrəli tam orta məktəbin, Nihat Nadirli Quba rayonu Birinci Nügədi kənd şəhid Zəki Kərimov adına tam orta məktəbinin şagirdləridirlər. Onlar kiçik və orta biznes, həmçinin gənclər üçün faydalı ola biləcək sayt hazırlayıblar.

Yunis deyir ki, onları qaliblər sırasına qatan saytı o hazırlayıb: “Kənan ideyasını, dizaynı Hüseynlə Yusif verdi, Nihat isə dizayna və təqdimata kömək etdi”.

X-XI siniflər üzrə I yerin sahibi “1011_20” komandasıdır. Onlar ekologiya sahəsində innovativ İKT məhsulu hazırlayıblar. Platforma istifadəçilərə gündəlik və həftəlik ekoloji missiyalar yerinə yetirərək bonus qazanma imkanı verir. Sosial şəbəkə funksiyası ilə dünyadakı digər istifadəçilərlə əlaqə yaradır. Sayt vasitəsi ilə aksiyalar və yenilikləri izləmək mümkün olur.

Xatırladaq ki, Məktəblilərarası Milli Hakaton - 2025-in əsas məqsədi məktəblilər arasında proqramlaşdırma və rəqəmsal bacarıqların inkişafına dəstək olmaq, yaradıcı və istedadlı şagirdləri üzə çıxarmaq, eləcə də onların gələcək inkişaf imkanlarını genişləndirməkdir.

**Ruhiyyə DAŞSALAHLI**
**Foto: Kənan QAFAROV**

# Peşə təhsili daha çevik və innovativ həllər təqdim etməlidir



Dekabrın 2-də Peşə Təhsili üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə "Peşə təhsili: nailiyyətlər və çağırışlar" mövzusunda konfrans keçirilib. Konfransda Elm və Təhsil Nazirliyinin və Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndələri, agentliyin tabeliyində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin direktorları və direktor müavinləri iştirak ediblər.

## "Peşə təhsili: nailiyyətlər və çağırışlar" mövzusunda konfrans keçirilib



Konfransda giriş nitqi ilə çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli bildirib ki, peşə təhsili müasir dövrün tələblərinə cavab verən, rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasında xüsusi rol oynayır. Peşə təhsili insanlara yalnız peşə öyrətmir, həm də sosial lift rolunu oynayır, gənclərə perspektiv və gələcək təmin edir. Mətin Kərimli bu gün peşə təhsili müəssisələrinə yalnız orta məktəbi bitirənlərin deyil, həm də karyerasının əvvəlində və ortasında olan, peşə bacarıqlarını genişləndirmək istəyən vətəndaşların da üstünlük verməsini sevindirici hal kimi qiymətləndirib. Qeyd edib ki, bu səbəbdən peşə təhsili daha çevik və innovativ həllər təqdim etməlidir.

Mətin Kərimli əlavə edib ki, ölkənin müxtəlif bölgələrində müasir təhsil proqramları əsasında fəaliyyət göstərən peşə təhsili müəssisələri yenidən qurulub və istifadəyə verilib, nəticədə tələbə qəbulu iki dəfə artıb. Aparat rəhbəri peşə təhsilinin strateji sənədlərdə, o cümlədən 2022-2026-cı illərə aid sosial-iqtisadi inkişaf strategiyasında və "Böyük Qayıdış" proqramında öz əksini tapdığını vurğulayıb.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor səlahiyyətlərini icra edən direktor müavini Simnar Mamedov çıxışında bildirib ki, görülən işlər nəticəsində peşə təhsilinin maddi-texniki bazası və tədris infrastrukturu əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb. Simnar Mamedovun sözlərinə görə, bu, əmək bazarının və iqtisadiyyatın real tələblərinə uyğun bacarıqlara sahib kadrların hazırlanmasına xidmət edir. Eyni zamanda, təhsil proqramlarının yenilənməsi kadr hazırlığına dair tələblərlə birbaşa əlaqəlidir. Peşə təhsili üzrə kadr tələblərinə uyğun istiqamətlər mütəmadi təhlil edilərək yenilənir ki, bu da əmək bazarındakı ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsini təmin edir.

Konfransda çıxış edən Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman bildirib ki, "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsində peşə təhsili müəssisələrinin sayının artırılması, məzmun və keyfiyyətin yenilənməsi, adambaşına maliyyələşdirmənin genişləndirilməsi, yeni peşə təhsil proqramlarının tətbiqi kimi bütün məsələlər müzakirəyə açıqdır. Təkliflər həm hökumətə, həm də ictimaiyyətə təqdim olunub. Növbəti ilin yanvar ayından qanunvericilik bazasının yenilənməsi və yeni normativ-hüquqi aktların hazırlanması ilə bağlı təşəbbüslər də müzakirə ediləcək.

Daha sonra Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Tural Əhmədov çıxışında cəmiyyətin peşə təhsilinə münasibətinin zamanla dəyişdiyini vurğulayıb. Bildirib ki, əvvəlcə ali təhsil müəssisələri ilə başlanılan yol bu gün müxtəlif təhsil pillələri və istiqamətləri üzrə qiymətləndirmə mexanizmlərinin genişləndirilməsi ilə davam edir. Bu prosesdə təhsil müəssisələrinin təmsilçiləri əmək bazarının tələblərinə uyğun kadrların hazırlanmasına mühüm töhfə verirlər.

Konfrans çərçivəsində 2022—2025-ci illər ərzində peşə təhsili sahəsində əldə olunan nəticələr təqdim edilib, görülən işlər təhlil və yeni dövr üçün çağırışlar müzakirə olunub. Sessiyalarda iştirakçılar peşə təhsili sisteminin inkişaf prioritetləri, əmək bazarının tələblərinə uyğun kadr hazırlığının gücləndirilməsi, idarəetmənin optimallaşdırılması və tədrisin keyfiyyətinin artırılması istiqamətləri üzrə təklif və fikir mübadiləsi aparıblar.

# "BilBacar" müsabiqəsi nə vəd edir?




Müasir təhsildə oxu savadlılığı yalnız mətnin səsləndirilməsi deyil, onun dərin məzmununun qavranılması, təhlili və nəticə çıxarma bacarıqları ilə ölçülür. Məhz bu bacarıqların erkən yaşlardan inkişaf etdirilməsi məqsədilə 2024-2025-ci tədris ilində ibtidai sinif şagirdləri üçün "BilBacar" adlı yeni ümumrespublika müsabiqəsinə start verilib. Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən "BilBacar" müsabiqəsinin əsas məqsədi III və IV sinif şagirdlərində oxu savadlılığını artırmaq, mətnin məzmununu anlama, təhlil və nəticə çıxarma bacarıqlarını inkişaf etdirmək, oxu fəaliyyətlərini təşviq etmək, eyni zamanda şagirdlərə kompüter əsaslı qiymətləndirmə mühitində təcrübə qazandırmaqdır. Layihə həm də sinifdaxili, siniflərarası və məktəblərarası sağlam rəqabətin formalaşdırılmasına xidmət edir. Builki müsabiqədə 2025-2026-cı tədris ilində III və IV siniflərdə təhsil alan şagirdləri olan məktəblər iştirak edə bilər. Ümumilikdə 8 ay davam edən müsabiqə 2025-ci ilin noyabr ayından başlayıb. 2026-cı ilin iyun ayınadək davam edəcək müsabiqə iki mərhələdə təşkil olunacaq.

Birinci mərhələ 2025-ci ilin noyabrından 2026-cı ilin may ayınadək virtual platforma üzərindən keçiriləcək. Bu mərhələdə hər məktəb üçün "BilBacar" koordinatoru təyin ediləcək. Şagirdlər UTİS kodu və şifrəsi vasitəsilə platformada şəxsi kabinetlərinə daxil olacaqlar. Platformada "Yarış" və "Hazırlıq" adlı iki əsas bölmə fəaliyyət göstərəcək.

"Yarış" bölməsində şagirdlər məktəbdə koordinatorun nəzarəti altında seanslarda iştirak edirlər. Hər seans iki hissədən ibarət olmaqla ümumilikdə 80 dəqiqə davam edir. Sualların sayı 29-38 arasında dəyişir. Hər düzgün cavab 10 balla qiymətləndirilir, səhv cavablar isə nəticəyə mənfi təsir göstərmir. Seansların keçirilmə tarixləri əvvəlcədən elan edilib.

"Hazırlıq" bölməsi isə şagirdlərin yarışlara istənilən vaxt və istənilən məkandan hazırlaşması üçün nəzərdə tutulub. Burada da sual sayı yarış formatına uyğun şəkildə müəyyən edilib.



Müsabiqədə liqa (səviyyə) sistemi tətbiq olunur. Şagirdlər əldə etdikləri nəticələrə uyğun olaraq 6 liqadan birində qərarlaşırlar: "Usta" (10 şagird), "Çempion" (20 şagird), "Kristal" (30 şagird), "Qızıl" (100 şagird), "Gümüş" (140 şagird) və "Bürünc" (digər iştirakçılar). Nəticələr və liqa mövqeləri platformada mütəmadi yenilənəcək.

"BilBacar" müsabiqəsində təkcə şagirdlər deyil, siniflər və məktəblər də yarışır. Məktəblər "yüksək iştirakçılıq" və "yüksək nəticə" olmaqla iki kateqoriya üzrə qiymətləndirilir. Yüksək iştirakçılıq məktəbdə mövcud olan bütün 3 və 4-cü siniflərin müsabiqəyə qatılması ilə müəyyən olunur. Sinfin iştirakçılığı üçün şagirdlərin ən azı 80 faizinin iştirakı tələb olunur. Yüksək nəticə isə məktəbin və ya sinfin şagirdlərinin topladığı balların orta göstəricisi əsasında hesablanır.




Reytinq sistemi də real vaxt rejimində işləyəcək. Saytın ana səhifəsində ilk 160 məktəbin, eləcə də şagirdlər üzrə ilk 5 liqada yer alan təxminən 300 iştirakçının adları mütəmadi olaraq yenilənəcək.

İkinci, yəni final mərhələsi 2026-cı ilin iyun ayının ilk yarısında əyani formatda keçiriləcək. Birinci mərhələnin sonunda "Qızıl", "Kristal", "Çempion" və "Usta" liqalarında qərarlaşmış şagirdlər finala vəsiqə qazanacaqlar. Final mərhələsində əvvəlki nəticələr sıfırlanacaq və qaliblər mərkəzləşdirilmiş qaydada müəyyən ediləcəklər.

Müsabiqənin yekununda qalib şagirdlər və məktəblər təntənəli mükafatlandırma mərasimində diplom və qiymətli hədiyyələrlə təltif olunacaqlar.

Qeyd edək ki, "BilBacar" müsabiqəsi müasir təhsil mühitində oxu savadlılığının gücləndirilməsi, şagirdlərin analitik düşüncə bacarıqlarının inkişafı və rəqəmsal qiymətləndirmə təcrübəsinin formalaşdırılması baxımından mühüm təşəbbüs kimi dəyərləndirilir.

**Yetər KƏRİMLİ**

**Builki müsabiqədə 2025-2026-cı tədris ilində III və IV siniflərdə təhsil alan şagirdləri olan məktəblər iştirak edə bilər. Ümumilikdə 8 ay davam edən müsabiqə 2025-ci ilin noyabr ayından başlayıb. 2026-cı ilin iyun ayınadək davam edəcək müsabiqə iki mərhələdə təşkil olunacaq.**

# QƏRBİ AZƏRBAYCAN BİZ QAYIDACAĞIQ!

Göyçə gölü İrəvan xanlığının Göyçə mahalında yerləşən gölün adıdır. Bu göl XIX əsrdə İrəvan quberniyasının Yeni Bayazid qəzasının ərazisinə aid olmuşdur. Göyçə gölü indiki Ermənistan ərazisində olmaqla Kamo (Kəvər), Martuni (Qaranlıq), Vardenis (Basarkeçər), Krasnoselo (Çəmbərək), Sevan rayonlarının ərazisi daxilindədir. Erməni mənbələrində (“Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti”) gölün adı Göyçə dərya, Göyçə dəniz, Göyçə dəngiz kimi də qeyd edilir. Qafqazın 5 verstlik xəritəsində Gökcə (Qekça) gölü kimi göstərilir. Göyçə gölünün adı “Kitabi-Dədə Qorqud” dastanında aydın şəkildə çəkilir: Ondan Şərukun ucundan Göyçə dənizə təkin el çarpdı. Ümumiyyətlə, “Kitabi-Dədə Qorqud”un müxtəlif illərdəki nəşrində Göyçə gölünün adı Göyçə dəniz, Gökcə dəniz, Gökcə dəngiz (Gögçe Denqiz) formalarında qeyd edilmişdir. Göyçə gölünün adı həm də VII əsr mənbəyi olan Moisey Kalankatuklunun “Albaniya tarixi” əsərində yer almışdır: “Artakses Yervanda hücum edəndə, Yerevand Albaniyanın Uşi vilayətində idi. Ordusunu orada saxlayıb, Artakses öz şəhərinə qayıdır. Orada Alban ordularını yanına dəvət edir, onlar Göyçə gölünün sahilinə gəlir”.

Teymurun səfərlərindən bəhs edən Yezidli Şərəfəddinin, Ağqoyunluların rəsmi tarixi olan “Kitabi-Diyarbəkriyyə”də gölün adı Gökcə Tengiz kimi yazılmışdır. XVIII əsrdə bu gölün yanından keçən Nadir Əfşarlıdan bəhs edən İran tarixində Gökçe-Dengiz. Göyçə gölünün adı 1847-ci ildə Tiflisdə çap olunmuş “Qafqaz diyarının xəritəsi”ndə, 1903-cü ildə çap olunmuş “Hərbi topoqrafik xəritə”də “Göyçə gölü”, A.Kırımlının xəritəsində isə Gökçə dərya (Gökçe derya) formasında qeyd edilmişdir. Mənbələrdə gölün adı müxtəlif formalarda qeyd olunsa da, dilimizin fonetik prinsipinə uyğunlaşdırılaraq “Göyçə gölü” kimi sabitləşmişdir.

**“Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır... Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq. Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda, Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb”.**

*İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti*

## Tarixə şahidlik edən Göyçə gölü












Gürcü şairi Aleksandr Çavçavadze (1786-1846) Göyçə gölünə şeir həsr etmişdir. Belə qənaətə gəlirik ki, A.Çavçavadze 1828-1830-cu illərdə “Erməni vilayəti”nin rəisi işləyərkən Göyçədə baş verən hadisələrin şahidi olmuş, 1817-1864-cü illərdəki Qafqaz müharibəsinin nəticəsində Göyçə gölü ətrafındakı Azərbaycan kəndlərində azərbaycanlılar doğma yurdlarından qovulmuş, “calayi-vətən” olmuş, kəndlər boşalmış, sahibsiz qalmışdır. Onun 1841-ci ildə yazdığı “Göyçə gölü” şeirində Göyçədə, Göyçə gölünün sahillərində kəndlərin dağıldığını (Bu kəndlər Azərbaycan kəndləri olub), xarabalığa çevrildiyini, abidələrin yerlə yeksan edildiyini yana-yana təsvir edir, Göyçə gölünün gözəlliyini tərənnüm edir.

“Göyçə gölü” şeiri Azərbaycan dilinə tərcümə edilərək “Kür Xəzərə qovuşur” kitabında (Bakı-1988) verilib.

Qorqudşünaslıqda Göyçə gölünün yerləşdiyi ərazi ilə, onun lokalizasiyası ilə bağlı müxtəlif fikirlər vardır. H.Araslı, Ş.Cəmşidov, M.Fahreddin Çelik, M.Fahrettin Kırzıoğlu, P.Xəlilov, Hüseynqulu Məmmədli “Kitabi-Dədə Qorqud”da adıçəkilən Göyçə gölünün//Göyçə dənizinin indiki Ermənistan ərazisində yerləşdiyini və həmin gölün indi Sevan gölü adlandırıldığını göstərirlər. Yazıçı Anar da yazır ki, eposda (“Kitabi-Dədə Qorqud” eposu nəzərdə tutulur - *İ.B.*) adıçəkilən Göyçə gölü elə indiki Ermənistan ərazisində olan Sevan gölüdür. İ.Şopenin 1852-ci ildə çap edilmiş “İstoriçeskiy pamyatnik sostoyaniya Armyanskoy oblasti v yeyo prisoedineniya k Rossiyskoy imperii” kitabında Göyçə gölü ilə bağlı belə bir məlumata rast gəlirik: “Arsaklar çağında bu gölün bütün çevrəsi, m.o.VII əsrdə buralara və Qarabağa yerləşmiş sakalara (isgit) görə Strabonda, “Sakasen” və iranlılarca (farsca - *İ.B.*) “Si-Sakan”, erməni dilində olan qaynaqlarda “Si-unik”, Si xanədanı, deyilən əyalətdən sayılırdı. Ptolemeyin coğrafiya əsərində “Lünitis” gölü kimi xatırlanır. Xalq arasında böyük və dərin göllərə “dəngiz” deyilməsi adət olduğundan, bu böyük dağ gölünə də Gökçe//Gökçə “Dəngiz /Gökçe//Kökce Dengiz/ adı verilmişdir”. İ.Şopenin əsərində gölün adı “Göyçay” (Qek-çay) kimi göstərilir. Hətta göl “Dariyaya şirin” adlanmışdır ki, bu da gölün suyunun duzlu olmaması ilə, yəni şirin (içməli, içməyə yararlı mənasında) olması ilə bağlıdır.

X.Koroğlunun fikrincə, “Kitabi-Dədə Qorqud”da adıçəkilən Göyçə gölü Gəncənin yaxınlığında yerləşən “Göygöl”dür. X.Koroğlunun bu fikrini təkzib edən Anar və P.Xəlilov doğru olaraq qeyd edirlər ki, “Kitabi-Dədə Qorqud”da adıçəkilən Göyçə gölü Gəncənin yaxınlığında, Kəpəz dağının ətəyində yerləşən Göygöl yox, indiki Ermənistan ərazisində yerləşən və indi Sevan gölü adlanan Göyçə gölüdür. S.Babayev “Kitabi-Dədə Qorqud” eposunda adıçəkilən Göyçə gölünün Naxçıvan MR-in Ordubad rayonundakı Göygöl olduğu qənaətinə gəlir. Müəllifin bu fikri inandırıcı deyil. Ona görə ki, dastanda gölün adı “Göyçə dəngiz” formasında çəkilir, “Göygöl” formasında yox. Digər tərəfdən S.Babayev dastanda adıçəkilən Altuntaxt toponiminin Naxçıvanın Babək rayonunda yerləşdiyini yazır. Belə bir yanlış fakta istinad edərək Göyçə gölünü Ordubad rayonundakı Göygöllə lokalizə edir. “Kitabi-Dədə Qorqud” dastanında adıçəkilən Altuntaxt toponimi Ordubad ərazisində deyil, Göyçə mahalında yerləşir. Bu yaşayış məntəqəsi Göyçə gölünün yaxınlığındadır. Eyni zamanda “Dədə Qorqud” oğuzların Ərməndəki (indiki Ermənistandakı - *İ.B.*) mövqeyinə görə tədqiqatçılar dönə-dönə təsdiq etmişlər ki, Qazan bəyin ov yeri Göycə dəniz, yaylaq yeri Göyçədəki Altuntaxtdadır”.

**Haşiyə:** Altuntaxt İrəvan xanlığının Göyçə mahalında kənd. XIX əsrdə yaradılan yeni inzibati-ərazi bölgüsünə əsasən, İrəvan quberniyasının Yeni Bayazid qəzasına, indiki Kəvər (Kamo) rayonu ərazisinə daxildir. XVIII əsrdə illik gəliri 4.210 ağça olmuşdur (İrəvan əyalətinin icmal dəftəri (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Ziya Bünyadov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı: Elm, 1996, s. 55.).

F.Zeynalov və S.Əlizadənin tərtib etdiyi “Kitabi-Dədə-Qorqud” dastanının “Qazan xanın evinin yağmalanması boyu”nda oxuyuruq: “Qazan bəg ordusını, oğlanını-uşağını, xəzinəsini aldı, gerü döndi altun təxtində. Yenə evini dikdi” (Kitabi-Dədə Qorqud, tərtib edənlər: F.Zeynalov və S.Əlizadə, Bakı: Yazıçı, 1988, s. 50.).

Göyçə gölünün sahəsi 1200 $km^2$, orta dərinliyi 28,5 m, maksimal dərinliyi 83 m-dir. Göyçə gölü dağarası çökəklikdə, təqribən 1900 metr hündürlükdədir. Qafqazın ən iri və uca dağ gölüdür. Şimal-qərbdən Pəmbək, cənubdan Basarkeçər, qərbdən Keğam silsilələri ilə əhatə olunur. Gölə 28 çay tökülür. Göldən isə Zəngi (Hazdan) çayı axır. Göyçə gölü, milliyyətcə erməni olan A.Xudabaşevin fikrincə, Kiçik dərya və ya Kiçik dəniz adlandırılmışdır və bu da “kiçik dəniz” (maloe more) mənasını ifadə edir. Kutaisi Müəllimlər Seminariyasının müəllimi İ.Xotyavski yazır ki, Göyçə gölünün adı çox qədimlərdən məlumdur və gölün adı Ptolemeyin əsərində qeyd edilmişdir.

K.F.Qanın fikrincə, Göyçə gölü “mavi, göy su” mənasını bildirir. K.F.Qan daha sonra Göyçə gölünün müxtəlif mənalar ifadə etdiyini göstərərək yazır: “Ruslar tərəfindən Göyçay (Göyçə gölü nəzərdə tutulur - *İ.B.*) Göyçə kimi dəyişdirilmişdir. Lakin bir sıra tədqiqatçıların fikrincə, bu göl adını ətraf yerə uyğun olaraq almışdır ki, qədim zamanlarda Göyçə ariçə Getcə (pod ariyskim imenem Qetdja) kimi (erməni yazıçılarının əsərlərində Kotayk) tanınmışdır və o Get torpağı deməkdir”. Türk tədqiqatçısı M.Faxreddin Çelik qeyd edir ki, “Atalarımız “Göyçə dəniz - Göyçə göl”ə rənginə görə bu adı vermişlərdir”. M.Fahrettin Kırzıoğlu gölün adı ilə bağlı yazır: “Arsaklılann mərkəzi əyaləti Araratın cənubunda yerləşdiyi üçün qədim türk dininə və ənənəsinə görə “Gökcə//Kökçə (Kökçe//Gökçe) rəngi ilə adlandırılmışdır”.

B.Budaqov və Q.Qeybullayev Göyçə gölü hidroniminin semantikası ilə bağlı yazırlar: “Gölün (Göyçə gölünün - *İ.B.*) bu adı onun suyunun açıq havada göy (mavi) rəngə çalması ilə əlaqədardır”. Hüseynqulu Məmmədli qeyd edir ki, Göyçə gölü (müəllif “Göyçə dəniz” forması əsasında fikir söyləyir) türk mənşəli Gögər//Quqar, Göy türklər tayfa adlarını xatırladır. Q.Qeybullayev Göyçə gölü hidronimi ilə bağlı yazır: “Azərbaycanlıların indiki Ermənistan ərazisində köklü olduğunu göstərən başqa faktlar da vardır. Bunların biri Göyçə gölünün adıdır. Eramızdan əvvəl VIII əsrə aid Urartu mənbəyində Göyçə gölünün yaxınlığındakı bu “ölkə” Kölək adlandırılır ki, bu da türkcə göl sözündəndir. V əsrə aid qədim erməni mənbəyində bu gölün adı Qelam kimidir. Qədim erməni dilində “l” səsi olmadığına görə yaddilli adlardakı “l” səsini “ğ” səsi ilə verirdilər. Ona görə mənbədə bu ad “Qeğam” kimidir. Göyçə gölünün ətrafında bir dağ silsiləsi indi də Qeğam (yəni Qelam) adlanır. Qelam adı erməni mənbələrində XVII əsrə qədər işlənmişdir. Abraam Kretası (XVII əsr) “Qelam gölü” ifadəsini işlətmişdir. Erməni tədqiqatçıları Qeqam (Qelam) adının mənasını ermənicə aydınlaşdıra bilməsələr də, onu erməni adı sayır və ondan bu bölgədə ermənilərin qədimdən yaşadıqlarını göstərən fakt kimi istifadə edirlər. Bu, uydurmadır. Yuxarıda qeyd etdik ki, hələ eramızdan əvvəl VIII əsrə aid Urartu mənbəyində gölün ətrafı Gölək adlanırdı. Bu da erməni və gürcü mənbələrinə Qelam və Kelakuni adları kimi daxil olmuşdur. Əslində onlar qədim türk dillərində qel (“göl”) sözündən düzəlmiş adlardır”.

Göyçə gölünün yaranması ilə bağlı rəvayətlər də mövcuddur. Bir rəvayətə görə, Göyçə gölü “gözəl, göyçək” sözləri əsasında yaranmışdır. İkinci rəvayətə görə, “göy kimi, göy rəngində olan” mənasında işlənən “göyçə” sözü əsasında formalaşmışdır. V.İ.Aslanov Gögçə adını birinci komponenti olan “gög”ü göy (qoluboy), “gögçə”ni isə mavi təhər (qolubenkiy) kimi mənalandırır. R.Eyvazova Göyçə hidroniminin gök etnonimi ilə bağlayır: “Bizə görə, kök//kuk//köy adının tayfa adı kimi də saymaq lazımdır. Belə ki, kök tərkibli kökər tayfaları da məlumdur. Kökərlər sakların ən böyük boyu olub, Qafqazda yaşamışlar. Kök tərkibli Kökçə//Göyçə adının mənşəyi də maraqlıdır. Belə ki, Gəncə adının izahında verdiyimiz şərhə əsaslanaraq cə//çyou//cou eyniliyini götürürük. Ola bilsin ki, gök tayfaları vaxtilə Çjou//Cou adlanan yerlərinin sakinləri olmuşlar. Güman ki, Gökçjou//Gökcou fonetik dəyişikliyə məruz qalaraq Gökçə//Gökçay şəklinə düşmüşdür”.

Yuxarıda deyilənləri ümumiləşdirib bu qənaətə gəlmək olur ki, Göyçə gölü hidroniminin linqvistik baxımından izahı, bizə görə, düzgün verilməmişdir. “Göyçə gölü” hidronimi “Göyçay gölü” adı əsasında formalaşmışdır. Yəni “Göyçə” “Göyçay” deməkdir. “Göyçay” sözünün sonundakı “y” samiti səs düşümü hadisəsinə uğramışdır və həmin söz Azərbaycan dilinin qayda-qanunlarına uyğunlaşaraq “Göyçə” kimi sabitləşmişdir. Deməli, “Göyçə gölü” hidronimi üç komponentdən ibarətdir: Göy+çə və göl. Hidronimin birinci komponenti “göy”, “təmiz”, “dumduru”, “şəffaf' mənalarını ifadə edir, “çə” isə “çay” sözünün fonetik formasıdır. Deməli, gölün suyu təmiz, duru olduğuna görə göy (təmiz mənasında) rəngə çaldığına görə göl “Göyçə gölü” adlandırılmışdır. “Göy” sözü türk mənşəli toponimlərin, əsasən, birinci komponenti kimi çıxış edir. Eyni zamanda “göy” sözü Azərbaycan toponimlərinin (Göyçay, Göygöl) tərkibində “duru”, “şəffaf' mənalarını ifadə edir. Göyçə mahalının adı da məhz Göyçə gölünün adı əsasında yaranmışdır.

XIX əsrdə indiki Ermənistan ərazisi çar Rusiyası tərəfindən işğal edildikdən sonra ermənilər bir çox məkrli niyyətlərini həyata keçirmişdir. Göyçə gölünün adı dəyişdirilib albanlar tərəfindən qara daşdan tikilmiş və Göyçə gölünün ortasında yerləşən Sevvank kilsəsinin adına uyğun olaraq Sevan qoyulmuşdur. Sevvank sözündəki iki “v” hərfi bir “v” kimi tələffüz edilmiş, sondakı vənk (kilsə) sözündəki “k” samiti düşmüş və beləliklə, “Sevvank” əvəzinə “Sevan” sözü yaranmışdır. Beləliklə, Qərbi Azərbaycanın yüzlərlə coğrafi adları kimi Göyçə gölünün adı da dəyişdirilərək Sevan gölü adlandırılmışdır.

**İbrahim BAYRAMOV,**
*ADPU-nun Müasir Azərbaycan dili kafedrasının professoru, filologiya elmləri doktoru*

# 10 yaşında təhsilə başladı, indi qardaşı ilə birinciliklər qazanır

## Peşə təhsili alan Fatimə Dostməmmədovanın həyat hekayəsi



Fatimə Dostməmmədova Bakı şəhəri 68 nömrəli tam orta məktəbin məzunu, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin I kurs tələbəsidir. Arzuladığı "Veb-dizayn və proqram təminatı" ixtisası üzrə yüksək texniki peşə təhsili alır. Sonra universitet tələbəsi də olmaq niyyətindədir.

Fatimə dünyaya "serebral iflic" deyilən bir xəstəliklə gəlib. Bu səbəbdən I qrup əlilliyi var. Beynəlxalq Əlillər Günündə "Azərbaycan müəllimi" onu təhsil aldığı Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində ziyarət etdi. Təhsil mühiti, qrupda münasibətləri, müəllimlərlə ünsiyyəti ilə maraqlanıb.

### "Azərbaycan tarixi" dərsində

Fatimə "Azərbaycan tarixi" dərsində idi. Dərsi tədris edən Məxluqə Hümbətova deyir ki, Fatimə qrupda fəaldır. Yoldaşları ilə münasibəti də normaldır. Hər kəs onu sevir, qayğısına qalır, köməyinə çatmağa tələsir: "Fatimə dərslərə çox həvəslə qatılır. Mərkəzimizdə fərqliliyi olan təhsilalanlarımız olduğundan inklüziv qruplarımız çoxdur. Həmin qruplarda işləyərkən həm özüm diqqətli oluram, həm də tələbələrimizi həssas olmağa çağırıram. Fərqliliklərə qarşı diqqətli olsaq da, onlara münasibətdə fərq qoymamağı, ayrı-seçkiliyə yol verməməyi öyrədirik. Başqa əlilliyi olan tələbələrimizdən fərqli olaraq Fatimənin hərəkət çətinliyi var. Qrupda hər kəs ona kömək etməyə çalışır. Murad, Əşrəf bu çətinliyin öhdəsindən gəlməkdə Fatimənin ən böyük yardımçılarıdırlar".

Müəllimi Fatimənin onun fənni üzrə bacarığından da danışır: "Qrupda dərsim yalnız birinci yarımildə keçilir. Yanvarda imtahan verəcəklər və bitəcək. Düşünürəm ki, Fatimə fənnimdən imtahanı uğurla verəcək. Çünki o, ali təhsil müəssisəsində təhsilinə davam etmək isəyir və bu fənn orada da keçilir. Odur ki, Fatimə də çox çalışır, amma yalnız sual verəndə cavablandırır. Azərbaycan tarixi elə fəndir ki, onu hamı bilməlidir. Ona görə də çalışıram ki, Fatimə tariximizi bilsin".

Məxluqə müəllim əlavə edir ki, Fatimə mərkəzin yaradıcı tələbələrindən biridir: "Çox istedadlıdır. Onun incəsənət sahəsində xüsusi bacarıqları var. Bunu hamımız bilir, qiymətləndiririk, onun pərəstişkarıyıq".

### İnklüziv sinifdə

Müəllimin "Fatimənin ən yaxın köməkçisi" adlandırdığı Murad Qəhrəmanov dərsdə elə onun yanında əyləşib. Azərbaycan tarixini öyrənməyi o da sevir. Amma bu qrupda həm də ünsiyyəti, insanlarla münasibəti, başqalarına faydalı olmağı öyrənir: "Fatiməyə kömək etməyə çalışıram. Tələbə yoldaşıma kömək etməkdən zövq alıram. Çalışıram ona diqqət göstərim, çətinliklərini azaldım. Mən də gözdən əliləm, onu yaxşı başa düşürəm".

Murad hesab edir ki, inklüziv sinifdə təhsil almaq insanlarda empati hissini, şəfqət duyğusunu inkişaf etdirir: "Belə bir sinifdə oxumaq həm fərqliliyi olanlar, həm də hər bir insan üçün faydalıdır. Yanımızda olan birinə kömək etmək birimizdə mərhəmət hissini artırır, digərində insanlara inamı, güvəni. Yəni kömək edən də faydalanır, kömək alan da".

### Ağır qəza, ömürlük iz

Ailəsinin ən böyük uşağıdır Fatimə. Bu gün anası da yanındadır. Şəbnəm Dostməmmədova deyir ki, qızı bir qəza nəticəsində dünyaya fərqli gəlib. Sağlamlığına ciddi və qalıcı təsir göstərən həmin qəza ailənin həyatında ömürlük iz buraxıb: "5 il xəstəxanalarda qaldıq, qızımın səhhətində heç bir dəyişiklik olmadı. Maddi imkansızlıq səbəbindən həlledici tibbi müdaxilə etdirmək mümkün olmurdu. Dövlət başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya müraciət etdim. Dərhal reaksiya verdilər və Fatimə bir qrup onun kimi uşaqla birlikdə Ukraynaya müalicəyə göndərildi. Bir müddət sonra onu Riqaya da göndərdilər və həmin müalicə sayəsində o, artıq iməkləyirdi".

Anasının sözlərinə görə, qızını 10 yaşına qədər qucağında gəzdirib: "Fatimənin dabanları yerə dəymirdi. Tula şəhərindən həkimlər gəlmişdi, onlar əməliyyat etdilər və sonra Fatimənin dabanları yerə çatdı. 10 yaşında Türkiyədən gələn cərrah Çingiz Çabukoğlu əməliyyat etdi və sonrakı müalicəsi qızıma yaxşı təsir etdi və o, ayağa da qalxa bildi".

Ayağa qalxsa da, Fatimə üçün dəstək olmadan yerimək, pilləkan çıxmaq, özünü sərbəst idarə etmək çox çətindir.

### "Oxumaq üçün gec deyil"

Ana üçün hələlik ən böyük təsəlli qızının israrı, qətiyyəti ilə davam edən təhsilidir. Budur, o, ölkəmizin ən yaxşı peşə təhsili mərkəzlərindən olan Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin zamanın tələbinə uyğun olan ixtisaslarından birində təhsil alır: "Fatimə serebral iflic diaqnozu ilə dünyaya gəlib. Amma səhhəti imkan verən kimi təhsili barədə düşündük".

5 yaşında yaşıdları məktəbə gedəndə o, yenicə iməkləmək öyrənirdi. Onun səhhəti təhsil almasına imkan verəndə yaşıdları artıq IV sinifdə oxuyurdu. Amma bu, ana-qızın qətiyyətini azaltmayıb. "Oxumaq üçün gec deyil, - deyib başlayıblar: "Əvvəlcə onu 170 nömrəli məktəbə qoyduq. İlk müəllimi Gülnarə müəllim oldu. Sonradan Fatimə evdə təhsil almağa başladı. Çox həvəs göstərirdi, oxumağa can atırdı, onu oxumaqdan yayındırmaq heç mümkün də olmazdı".

Sonra 309 nömrəli məktəbin müəllimləri evə gəlib, ailə yaşayış yerini dəyişdiyi üçün Fatimə 68 nömrəli tam orta ümumtəhsil məktəbindən məzun olub.

### "Qəbul imtahanında ağladım"

Fatimə bu 3 məktəb arasında ən çox məzun olduğu məktəbin müəllimlərini sevib: "Məzun olmaq istəmirdim. Orta məktəbdəki müəllimlərim ilə ayrılmaq çətin oldu. İngilis dili müəllimimi lap çox sevirdim. Onunla həvəslə işləyirdim. Hətta elə həvəslə işləmişdim ki, ali təhsil müəssisələrinə qəbul imtahanlarında ən çox ingilis dilindən sualları cavablandırmışdım".

Fatimə deyir ki, imtahandan çox qorxur, həyəcanlanır: "İlk dəfə iştirak etdiyim qəbul imtahanında ağladım. İmtahan verə bilmədim, nəticəm uğursuz oldu".

Ali məktəbə qəbul olunmayanda təhsil almaqdan vaz keçməyib, xoşuna gələn ixtisasa peşə təhsili ilə yiyələnməyə qərar verib: "Peşə təhsili müəssisələrinə qəbul prosesinə qatıldıq. Attestat qiymətlərim yaxşı idi, ona görə ən yaxşı peşə təhsili müəssisəsinə qəbul oldum".

Anası deyir ki, veb-dizayner olmaq istəsə də, incəsənətə çox meyillidir. Mahnı oxumağı da sevir, rəqs etməyi də: "Son zəng tədbirində qardaşı ilə elə bir rəqs etdi ki, hamı valeh oldu".

### Qardaş-bacı rəqslərində bərabər qazanılan böyük nailiyyətlər

Onlar uğur dalınca uğur qazanıblar. Məsələn, "Bakı çempionatı-2025" müsabiqəsinin qalibidirlər. "Tanıyın, tanıdın bizi" - 4 istedad yarışında, "Payız möcüzələri" festivalında uğurla çıxış ediblər, əlilliyi olan şəxslər arasında keçirilən "Bir Səhnə, Min Rəng" Bədii Yaradıcılıq Festivalına, "Golden Kids Fashion"ın təşkilatçılığı ilə keçirilən "Gələcəyin Zirvələri 2025" layihəsinə qatılaraq mükafatlar qazanıblar.

Onun uğurları üçün təhsil aldığı Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində də əllərindən gələni etməyə çalışırlar. Mərkəzin direktoru Şaban Cəərçiyev "Azərbaycan müəllimi"nə açıqlamasında deyib ki, mərkəzdə Fatimənin oxuduğu "Veb-dizayn və proqram təminatı"ndan savayı, "İnteryer dizayn, "Avtomatika sistemlərinin istismarı", "Proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı", "İnformasiya Kommunikasiya Texnologiyaları üzrə texnik", "Elektronika kommunikasiya sistemlərinin istismarı", "Kibertəhlükəsizlik", "Proqramla idarə olunan dəzgahların operatoru", "Avtomobil diaqnostikası üzrə texnik", "Elektrik və hibrid avtomobillərin təmiri üzrə texnik", "Avtomobillərin təmiri çilingəri", "Kompüter sistemlərində proqramlaşdırma", "Tibbi avadanlıqların təmiri və xidməti elektromexaniki", Logistika", "Qrafik dizayner", "Nəqliyyat vasitələrinin texniki istismarı (avtomobil üzrə)", "Sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və istismarı", "İstehsalata rəqəmsal nəzarət sistemləri" ixtisasları üzrə inklüziv qruplar fəaliyyət göstərir: "Mərkəzimizdə inklüziv tələbələrlə iş sistemli və həssas yanaşma əsasında təşkil olunur. İlk mərhələdə müəllim köməkçisi tərəfindən inklüziv statusa malik tələbələrin identifikasiyası və siyahılaşdırılması həyata keçirilir, daha sonra tələbələrlə fərdi diaqnostik görüşlər aparılaraq onların ehtiyacları, təklifləri və mümkün çətinlikləri barədə məlumatlar toplanır və müvafiq qeydlər edilir".

Direktorun sözlərinə görə, qruplar arasında inklüziv tələbələrin xüsusiyyətləri, onların psixososial həssaslıqları və ümumi nizam-intizam tələbləri barədə maarifləndirmə işi aparılır: "Tələbələrə mərkəzdəki emalatxanalar, tədris otaqları, mövcud ixtisaslar və müəllim heyəti haqqında ümumi məlumat verilir. Onlar mərkəzin müxtəlif fəaliyyət və tədbirlərində aktiv iştiraka təşviq edilir".

Mərkəzdə müəllim heyəti inklüziv tələbələrin xüsusiyyətləri və ehtiyacları barədə mütəmadi məlumatlandırılır, eyni zamanda müəllimlərdən tələbələrin vəziyyəti mütəmadi izlənilir, əks reaksiya öyrənilir: "Tələbənin hər hansı çətinliyi, məsələn, dərsin mənimsənilməsi ilə bağlı problem olduqda məsul müəllimlə birlikdə tədrisin yenidən izahı və adaptasiyası təmin olunur. İmtahanla bağlı çətinlik müşahidə edilərsə, tələbə imtahan öncəsi və imtahan prosesində əlavə pedaqoji və təşkilati dəstək alır. Sosial mühitlə, xüsusilə digər tələbələrlə əlaqələrdə problem yaranarsa, qrup daxilində yenidən maarifləndirmə aparılır və nizam-intizam qaydaları izah olunur. Psixoloji gərginlik və emosional çətinlik hallarında tələbə psixoloqa yönləndirilir".

Ş.Cəərçiyev deyib ki, müəllimlər inklüziv tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq onların bilik səviyyəsinə, maraqlarına və bacarıqlarına uyğun olaraq müxtəlif səviyyəli tapşırıqlar və fərqli yanaşmalarla tədrisi təşkil edirlər. Bu da onların təhsil prosesinə tam və bərabər şəkildə inteqrasiyasını təmin edir.

Fatimə Dostməmmədova daha böyük uğurlar qazanacağına inanır. Çünki təhsili, parlaması üçün anası, qardaşı, ailəsi ilə yanaşı, dövləti - təhsil aldığı və alacağı təhsil müəssisələri və bütün təhsil sistemi onun yanındadır. Təkcə onun deyil, onun kimi yüzlərlə fərqli uşaq üçün təhsilin əlçatan olması prioritetdir.

**Ruhiyyə DAŞSALAHLI**




# Qaranlığa işıq saçan barmaqlar

## Görmə məhdudiyyətli uşaqların hekayəsi

Reportaj üçün üz tutduğumuz məktəbdə ilk həmsöhbətlərimiz elə uşaqların özləri oldu. İkinci və üçüncü sinif şagirdləri balaca olduqları qədər də cəsarətlidirlər. Onlardan biri həkim, digəri riyaziyyat müəllimi, başqa biri isə maşın ustası olmaq istəyir. İlk baxışdan bu arzular hər bir məktəbdə eşidilən adi uşaq xəyalları kimi görünə bilər. Amma bu xəyalların sahiblərinin hekayəsi fərqlidir. Çünki bu arzular məhdudiyyət tanımayan, Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbinin şagirdlərinə məxsusdur.

Bu məktəbdə dünyanı görmək üçün gözlərdən çox barmaqlar işə düşür. Uşaqlar bir səslə istiqamət tapır, toxunuşla formaları tanıyır, hər addımda həyatın yeni bir detalını kəşf edirlər. Tədris burada ən fundamental bacarıqlardan başlayır: addımlamaq, istiqaməti müəyyən etmək, öz yeməyini sərbəst yemək... bunların hər biri özünəgüvən hissini formalaşdıran kiçik, amma taleyüklü addımlardır.



### İnternatın balaca sakini Fəxrimin arzusu...

İkinci sinif şagirdi olan Fəxrim deyir ki, təhsil almaq üçün buraya Gəncədən gəlib. İki həftədən bir evlərinə gedir. O, böyüyəndə müğənni olmaq istəyir. Çünki anası ona səsinin çox gözəl olduğunu deyib. Balaca həmsöhbətimiz deyir ki, məktəbdə qalır və burada çoxlu dostları var:

"Anam mənə deyir ki, səsin çox gözəldir, böyüyəndə müğənni ol. Mənim həmişə onun üçün oxuduğum bir mahnım da var. Oxuyum?", - deyə həyəcanla soruşur.

Amma həyəcanı o qədər idi ki, həmin mahnını heç cür xatırlaya bilmədi. Biz isə eşitməsək də, onun ifasının gözəl olacağına əmin idik.

### "Əvvəlcə sosiallaşma və ünsiyyət bacarıqlarını formalaşdırırıq"

Sinifdə müəllimlərin şagirdlərlə işi daha çox əllərin, barmaqların üzərində qurulub. İbtidai sinif müəllimi Şəhla İmanova bildirir ki, məktəbəqədər hazırlıq keçməyən uşaqlar məktəbə gələndə ilk mərhələ onları yeni mühitə uyğunlaşdırmaqdır:

"Əvvəlcə sosiallaşma və ünsiyyət bacarıqlarını formalaşdırırıq. Sonra uşaqların IQ səviyyəsini müəyyənləşdirir, hər birinə fərdi yanaşma planı qururuq. Görmə məhdudiyyətli uşaqlar üçün toxunma fəaliyyəti çox vacibdir. Buna görə ilk günlərdən əllərin və barmaqların inkişafı üzərində işləyirik. Dəri hissiyyatını oyadırıq ki, uşaq toxunduğu əşyanı daha tez dərk edə bilsin".

Bu hazırlıq mərhələsindən sonra uşaqlar nöqtələrin kombinasiyasını tanımağa başlayır. Onların ilk "əlifba"sı altı nöqtədən ibarət sadə bir lövhədir. Bəzən hətta düyü və ya noxud dənələri belə bir dərs materialına çevrilir. Şəhla müəllim Brayl yazısının tədrisini belə izah edir:

"Hərflər altı nöqtə kombinasiyasına yerləşir. Dəmirdən hazırlanmış "pribor" və "grifil" adlanan xüsusi alətlərdən istifadə edirik. Uşaq nöqtələrin mövqeyini mənimsədikdən sonra yazı alətlərinə, daha sonra isə kitab oxumağa keçir. Toxunma duyğusu inkişaf etdikcə mətni sərbəst oxuya bilir".

Bu məktəb Şəhla müəllim üçün yalnız iş yeri deyil. O, vaxtilə bu siniflərdə təhsil alıb və indi özü başqalarının dünyasını işıqlandırır. Elə burada çalışan müəllimlər arasında da bir zamanlar onun şagirdi olmuş insanlar var.

Hazırda məktəbdə 315 şagird təhsil alır, onlardan 106-sı internatın sakinləridir. İnternatda ikinci növbədə çalışan tərbiyəçilər uşaqlara həm təhsildə, həm də gündəlik bacarıqların formalaşdırılmasında dəstək olurlar.

### "Onlara sadəcə tapşırıq yox, həyat bacarıqları öyrədirik"

Artıq 11 ildir ki, burada çalışan tərbiyəçi Dürrə Hüseynli uşaqlarla gündəlik fəaliyyətlərdən danışır:

"Bizim əsas işimiz ev tapşırıqlarının həllində onlara kömək etməklə yanaşı, ilkin bacarıqlarını və sosiallaşma qabiliyyətlərini formalaşdırmaqdır. Dərsdən sonra əl işləri hazırlayır, müxtəlif bacarıq inkişafı fəaliyyətləri həyata keçiririk. Bəziləri musiqi dərnəyinə, bəziləri tətbiqi sənət və



folklor dərnəklərinə qatılır. Çoxu ilk gəldikdə istiqaməti müəyyən edə bilmir, amma qısa zamanda öyrənirlər".

Uşaqlarda yemək, diş fırçalama, yataqxanada özünüidarəetmə kimi gündəlik vərdişlərin formalaşması tərbiyəçilərin ən çox diqqət yetirdiyi istiqamətlərdir.

### Hər kəs öz istedadını tapır

Məktəbdə günün ikinci yarısında xüsusi bir canlanma hiss edilir. Bəziləri əl işləri hazırlayır, bəziləri musiqi alətlərində məşq edir. Bu uşaqlar bəzən sadəcə sinif yoldaşı deyil, bir ansamblın üzvü olurlar.

Görmə məhdudiyyətli uşaqlarda musiqi duyumu çox zaman daha güclü olur. Elə buna görə də məktəbin həyətində yerləşən Gözdən əlil uşaqlar üçün 38 nömrəli 11 illik musiqi məktəbi onlar üçün xüsusi bir məkandır. Burada internatın 315 şagirdindən 156 nəfəri musiqi təhsilinə cəlb edilib.

Tar müəllimi İmaməli İmaməliyev artıq 45 ildir ki, buradakı uşaqlara musiqinin sirlərini öyrədir:

"Burada tar, kamança, qarmon, nağara, kanon, fortepiano, skripka və xor dərsləri tədris olunur. Tələbələr internat məktəbindən gəlir və onların ilkin musiqi qabiliyyətini yoxladıqdan sonra yönləndiririk. Görmə məhdudiyyətli uşaqlarla işləmək çətin olsa da, çoxu görən uşaqlardan daha istedadlı olur. Onların arasında Prezident mükafatçıları, müsabiqə qalibləri, ali məktəblərdə oxuyanlar var".

Bu məktəbin bir çox müəllimləri də bir zamanlar burada şagird olub, indi isə öz bilik və təcrübələrini yeni nəslə ötürürlər.

### "Bu uşaqlar dünyanı başqa cür görürlər"

Məktəbin həyətində addımlayan şagirdlər müəllimlərinin müşayiəti ilə müxtəlif fəaliyyətlərlə məşğul olurlar.

Bir neçə uşaq səs-küylə balaca dovşan balasını sığallayır, bəziləri isə yerə tökülmüş ağac qozalarını toplayaraq əl işi hazırlamağa çalışırlar. Balaca bir qız isə bir gül budağının hər yarpağına toxunaraq onu hiss etməyə çalışır. Onlar həyatı addım-addım hiss edərək tanıyırlar.

Təhsil onlara gözlə görünməyən, amma qəlblərlə hiss olunan bir güc verir: öz yollarını tapmaq gücü.

**Yetər KƏRİMLİ**

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

**adıçəkilən kafedralarda vakant vəzifəni tutmaq üçün müsabiqə**

**ELAN EDİR:**

*Musiqi tarixi və nəzəriyyəsi kafedrası - Professor - 1 yer*

*Muzeyşünaslıq və turizm kafedrası - Dosent - 1 yer*

Müsabiqədə kafedraların profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39

**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**



## “AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 37971 **Sifariş:** 2493

**Məsul növbətçi:** O.Mustafayev



## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Mingəçevir Dövlət Universiteti

**dekan vəzifəsini tutmaq üçün müsabiqə**

**ELAN EDİR:**

**İqtisadiyyat və idarəetmə fakültəsi üzrə - 1 yer**

**Qeyd:** Ərizələrin qəbulu bu elan dərc edildikdən sonra 1 (bir) ay müddətindədir. Əsasnaməyə uyğun olaraq sənədlər (kadrların şəxsi qeydiyyat vərəqəsi, tərcümeyi-hal, ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti, dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı) rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Ünvan:** Mingəçevir şəhəri, AZ 4500, D.Əliyeva küçəsi 21.
**www.mdu.edu.az, E-mail:** info@mdu.edu.az
**Telefon:** (02427) 7-32-72.

**REKTORLUQ**


# Etibarsız sayılır

**Göyçay şəhər** 4 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Paşalı Firidun İqbal oğluna verilmiş A-447087 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 32 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Yunusov Ağasəlim Fizuli oğluna verilmiş E-413781 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 267 nömrəli məktəb-liseyi 2023-cü ildə bitirmiş Əliyev Rəhim Valeh oğluna verilmiş E-563417 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** İstisu qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1997-ci ildə bitirmiş Hüseynov Arif Avdıl oğluna verilmiş A-023696 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** M.Füzuli adına tam orta məktəbi 2005-ci ildə bitirmiş Əliyeva (Aslanova) Raminə Rizvan qızına verilmiş 177842 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Cəhri qəsəbə 1 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Quliyev Elay Əbdüllah oğluna verilmiş A-179662 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Pənahova Vəfa Söhbət qızına verilmiş A-557481 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərb Universiteti** tərəfindən 2013-cü ildə Nəcəfov Eldar İqor oğluna verilmiş A-004852 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 12 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Əliyeva Sona Mədəd qızına verilmiş A-515458 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Qasımova (Əzizova) Aygün Faiq qızına verilmiş B-307049 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Səbətkeçməz kənd tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Bayramov Elvin Məkan oğluna verilmiş E-432097 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Böyük Qaramurad kənd tam orta ümumtəhsil məktəbi 2002-ci ildə bitirmiş Ələsgərova Gülnar İlqam qızına verilmiş A-611684 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2012-ci ildə Xəlilov Ayxan Dünyamalı oğluna verilmiş B-246984 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**DİN-nin Polis Akademiyası** tərəfindən 1997-ci ildə Əmirli Sakit Muxtar oğluna verilmiş AR-0834 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Qasımlı Orxan Dilqəm oğluna verilmiş C-894312 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Əsgərov Səxavət Cəlil oğluna verilmiş A-024550 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 177 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Əliyeva Atlas Xeyrulla qızına verilmiş C-039320 nömrəli ümumi orta təhsil haqqında attestat və 2022-ci ildə verilmiş E-457408 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Arus kənd tam orta məktəbi 1988-ci ildə bitirmiş Əliyev Elsevər Hüseynali oğluna verilmiş B-458637 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Aşağı Bucaq kənd ümumi orta ümumtəhsil məktəbi 1984-cü ildə bitirmiş Qasımova Günay Şumal qızına verilmiş 000795 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Əhmədli Əhməd Eldəniz oğluna verilmiş E-251144 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli məktəb-liseyi 2023-cü ildə bitirmiş Abdullazadə Əbubəkr İlham oğluna verilmiş E-614330 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 26 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Mahmudov Anar Əkrəm oğluna verilmiş B-223045 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** İvanovka kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Skokova Kseniya Nikolayevnaya verilmiş C-297189 nömrəli ümumi orta təhsil haqqında attestat və 2021-ci ildə verilmiş E-424844 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 119 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Nurəliyev Nicat Qorxmaz oğluna verilmiş E-295451 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 106 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Nadirova Minəş Şikar qızına verilmiş 468515 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Şahtaxtı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Tağıyeva Cəmilə İbrahim qızına verilmiş A-749927 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**67 nömrəli Bakı Texniki Peşə Məktəbi** tərəfindən 1990-cı ildə Süleymanov Mahir Akif oğluna verilmiş B-490312 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Çinarlı qəsəbə tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Tağıyeva Fatma-Bəyim Mirhüseyn qızına verilmiş B-612395 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Vəkilov Qiyas Pünhan oğluna verilmiş A-321850 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Nərəcan kənd tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Ağadadaşov Emil Azər oğluna verilmiş E-631614 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi** tərəfindən 1996-cı ildə Nəcəfov Allahverdi Humay oğluna verilmiş 360 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad Dövlət Peşə Liseyi** (Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1999-cu ildə Əzizov Emin Qədəmşah oğluna verilmiş AB-002384 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 107 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əhmədov Seymur Telman oğluna verilmiş A-542527 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 2021-ci ildə bitirmiş Musayev İbrahim Fərhad oğluna verilmiş E-372981 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Tibb Kolleci** tərəfindən 2020-ci ildə Eminova Nəzrin Kamil qızına verilmiş AA-168912 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Əhmədov Şahbaz Babək oğluna verilmiş E-141026 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 59 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Quliyev Nahid Nüsləddin oğluna verilmiş E360929 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 288 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Məstəliyev Yaqub Nərman oğluna verilmiş E-555895 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** Akademik Zərifə Əliyeva adına liseyin IX sinfini 2010-cu ildə bitirmiş Bağırova (Əliyeva) Aytac Sahib qızına verilmiş A-941247 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2007-ci ildə Hacızadə Mehriban Vaqif qızına verilmiş B-100635 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Əliquliyeva (İbrahimova) Afət Ələsgər qızına verilmiş B-702620 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş Bayramov Orxan Vidadi oğluna verilmiş A-256119 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 238 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş İsayeva Günel Hüseyn qızına verilmiş A-621319 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Yusifova (Əmiraslanova) Nurlana Zahid qızına verilmiş 775914 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Vəliyev Röyal Oktay oğluna verilmiş B-116703 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 14 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Abbasova Xanım Telman qızına verilmiş A-538390 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Yalama kənd tam orta ümumtəhsil məktəbi 1997-ci ildə bitirmiş İbrahimxəlilova Aida Mirzəhməd qızına verilmiş 038137 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 250 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Abdullayeva Elnarə Şahin qızına verilmiş B-586306 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**“Hədəf Liseyi”** MMC-ni 2025-ci ildə bitirmiş Kərimli Aliyə Qurban qızına verilmiş E-877034 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Gəgiran kənd tam orta məktəbi 1984-cü ildə bitirmiş Quliyev Sərraf Mürsəl oğluna verilmiş 977675 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa şəhər** 11 nömrəli tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Mehtiyeva Səltənət Varaşil qızına verilmiş A-676950 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti** tərəfindən 1965-ci ildə Məhərəmov Əkbər Bəhrəm oğluna verilmiş T-501182 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikası Elmlər Akademiyası Fizika İnstitutunun Elmi Şurasının** 18 iyun 1981-ci il tarixli qərarı ilə Məhərəmov Əkbər Bəhrəm oğluna verilmiş FM N-015085 nömrəli fizika-ryaziyyat elmləri namizədi haqqında diplom (qeyd: Moskva, 23 dekabr 1981-ci il) itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının** qərarı ilə Məhərəmov Əkbər Bəhrəm oğluna 2002-ci ildə verilmiş baş elmi işçi sənədi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 96 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Kamalova Aysel Vaqif qızına verilmiş B-491562 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Uzuntəpə kənd 2 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Əzizova Rüqayə Habil qızına verilmiş E-864053 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü liseyi 2008-ci ildə bitirmiş İbrahimova Nərmin İsmayıl qızına verilmiş B-563231 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Abdullayeva Fidan Elçin qızına verilmiş E-202490 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Ocaqlı kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Əliyeva Mədinə Xəyal qızına verilmiş 017756 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Aşağı Kürkənd kənd tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Ağayeva Şəhla Azadxan qızına verilmiş 225 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**“Hədəf Liseyi” MMC-nin** IX sinfini 2025-ci ildə bitirmiş Həsənli Saleh Mübariz oğluna verilmiş F-170408 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.